**NAXÇIVAN MUXTAR RESPUBLİKASININ**
**NAZİRLƏR KABİNETİ**

# Q Ə R A R

**"Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin və Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliklərində publik hüquqi şəxslərin yaradılması barədə" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 09 fevral tarixli 229-VI FR nömrəli Fərmanının icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi və bir sıra qərarlarının ləğv edilməsi haqqında**

"Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin və Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliklərində publik hüquqi şəxslərin yaradılması barədə" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 09 fevral tarixli 229-VI FR nömrəli Fərmanının 5.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2007-ci il 5 sentyabr tarixli 69 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında inzibati orqanların Təsnifatı"nın II bölməsinin 35-ci hissəsi ləğv edilsin.

2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 3 sentyabr tarixli 113 nömrəli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında özünüməşğulluğa cəlb olunmuş şəxsdən geri alınmış əmlakın açıq hərracda satılması Qaydası"nın 3.1-ci bəndində "kütləvi informasiya vasitələrində" sözləri "mediada" sözü ilə əvəz edilsin.

3. "Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzi haqqında Əsasnamə"nin və Mərkəzin ştat cədvəlinin təsdiq edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2022-ci il 29 mart tarixli 77 nömrəli Qərarının 1 - 3-cü hissələri ləğv edilsin.

4. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin “Müsadirə olunmuş, sahibsiz qalmış, vərəsəlik hüququ əsasında dövlət mülkiyyətinə keçən, banklar tərəfindən verilmiş kreditlərin təminatı olaraq fiziki və hüquqi şəxslər tərəfindən girov (ipoteka) qoyulmuş və şəxsin dövlət xeyrinə imtina etdiyi əmlakın açıq hərraclarda satılması qaydalarının təsdiq edilməsi haqqında” 2013-cü il 16 yanvar tarixli 9 nömrəli, “Vergi ödəyicisinin siyahıya alınmış əmlakının Naxçıvan Muxtar Respublikasının ticarət şəbəkələrində (o cümlədən, satışını elektron şəkildə həyata keçirən ticarət şəbəkələrində) satışının təşkili Qaydaları”nın təsdiq edilməsi barədə” 2017-ci il 6 iyul tarixli 67 nömrəli və “Naxçıvan Muxtar Respublikasının Hərracların Təşkili üzrə Auksion Mərkəzi tərəfindən hərracların keçirilməsinə görə xidmət haqlarının müəyyən edilməsi haqqında” 2022-ci il 15 aprel tarixli 103 nömrəli qərarları ləğv edilsin.

5. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, “ 5 ” aprel 2024-cü il

№ 35